Xanımlar xanımı

# Hz. Fatimeyi Zəhra (s.ə)



Xanım Fatimeyi-Zəhra (s.ə.) besətin 5-ci ili, Cəmadiüs-sani ayının 20-də, Peyğəmbər (s) qırx beş yaşında ikən Məkkədə dünyaya göz açmışdır. Anası xanım Xədicə (s) olmuşdur. Merac gecəsi Peyğəmbəri-Əkrəmə (s) təklif edilən behişt meyvələrindən Peyğəmbərimiz (s) təzə xurma və üzümdən meyl edir. Allah-Taala həmin behişt meyvələrini Peyğəmbərin (s) sülbündə suya (nütfəyə) çevirir. Nəticədə, Peyğəmbər (s) meracdan qayıtdıqdan sonra Fatimənin (s.ə.) nuru Xədicənin (s.ə.) bətnində cilvələnir. Buna görə də, xanım Fatiməni (s.ə.) insan simasında bir huri adlandırmışlar. Peyğəmbər (s) haçan behişt və Tuba ağacının ətrini duymaq istəsəydi, Fatimədən (s.ə.) alardı.

## HƏZRƏT FATİMEYİ-ZƏHRANIN (S.Ə.) TƏVƏLLÜDÜ

Şeyx Səduq Əmali kitabında Müfəzzəl ibn Ömərdən belə nəql edir: Bir gün imam Sadiqdən (ə) soruşdum: Fatimə (s.ə.) dünyaya necə gəlib? İmam (ə) buyurdu: Xədicə (s.ə.) Peyğəmbərlə (s) evləndikdən sonra Məkkə qadınları İslama qarşı düşmənçiliklərıdən Xədicədən (s.ə.) uzaqlaşdılar, belə ki, onlar nə Xədicənin (s.ə.) evinə gedir, nə də yolda onu görəndə salam verir, hətta başqa qadınların belə onunla görüşməsinə mane olurdular. Bütün bunlardan da Xədicə (s.ə.) çox kədərlənir və bu çirkin rəftarların həzrət Mühəmmədə (s) zərər yetirəcəyindən qorxurdu. Amma Xədicə (s.ə.) bunu da Peyğəmbərdən (s) gizlədirdi. Bir gün Allahın Rəsulu (s) evə daxil olduqda, Xədicənin (s.ə.) kiminləsə söhbət etdiyini eşidir və bu barədə Xədicədən (s.ə.) soruşduqda, belə cavab verir: Bətnimdəki uşaq mənimlə söhbət edir. O, mənim munisimdir.

Peyğəmbər (s) buyurur: Cəbrail mənə xəbər verib ki, bu uşaq qızdır. Bizim mübarək və pak nəslimiz də ondandır. Allah-Taala vəhy kəsildikdən sonra onları yer üzündə mənim canişin və xəlifələrim qərar verəcəkdir.

Bu minvalla, həzrət Xədicə (s.ə.) hamiləlik dövrünü keçirdi. O, Fatimənin (s.ə.) doğum günü çatdıqda, Qüreyş və Bəni-Haşim qadınlarına ona hamiləlikdən azad olmaqda kömək göstərmələri üçün xəbər göndərdi. Lakin Qureyş və Bəni-Haşim qadınları bildirdilər ki, sən bizə sayğı göstərməyib, sözümüzü yerə saldın və Əbu Talibin yoxsul yetimi Mühəmmədə (s) ərə getdin, elə buna görə də, sənin yanına gəlməyəcək, sənə kömək də etməyəcəyik. Besətin ilk illərində müşriklər müsəlmanları bacardıqları qədər sıxışdırırdılar. (Peyğəmbəri-Əkrəmin (s) tərəfdarları özlərini cəmiyyətdən təcrid olunmuş, tək və qərib hiss edirdilər.) Xədicə (s.ə.) bu xəbərdən çox kədərlənsə də, Allah-Taala onu tək



qoymadı. Qəflətən Bəni-Haşim qadınlarına bənzər dörd nəfər buğdayı və ucaboylu qadın evə daxil oldu. Xədicə (s.ə.) onları görcək qorxdu. Qadınlardan biri dedi:  Ey Xədicə, qorxma! Biz Allah tərəfindən gəlmişik. Sənin bacılarınıq. Mən Sarayam (İbrahim Xəlilin (ə) zövcəsi) və o da Müzahimin qızı Asiyadır. O, sənin behiştdəki rəfiqəndir. O birisi İmranın qızı Məryəm, digəri isə Musanın bacısı Gülsümdür. Allah-Taala bizi sənin yanına sənə hamiləlikdən azad olmaqda kömək etmək üçün göndərmişdir.

Bu vaxt onlardan biri Xədicənin (s.ə.) sağ, digəri sol, üçüncüsü üzbəüz, dördüncüsü isə arxa tərəfində əyləşdi. Fatimə (s.ə.) pak-pakizə bir halda dünyaya gəldi. Behişt hurilərindən on nəfər əllərində cənnətdən gətirdikləri teşt və  Kövsər  hovuzunun suyundan doldurulmuş kuzə ilə evə daxil oldular. Xədicənin (s.ə.) qarşısında duran qadın Fatiməni (s.ə.) götürüb  Kövsər  suyu ilə yudu, ağappaq, ətirli iki parçadan biri ilə Fatiməni (s.ə.) bələyib, digəri ilə isə başını bağladı...

O zaman qadınlar Xədicəyə (s.ə.) dedilər:  Pak-pakizə və bərəkətli nəslə sahib olacaq mübarək övladını qucağına al!

## XANIM FATİMEYİ-ZƏHRANIN (S.Ə.) MƏQAMI

### 1. Xanım Fatimeyi-Zəhra (s.ə.) – qadınların ən üstünü:

Məşhur əhli-sünnə mənbələrində nəql olunan bir çox rəvayətlərdə aşkar şəkildə göstərilir ki, xanım Fatimeyi-Zəhra (s.ə.) qadınların ən fəzilətlisi və üstünüdür. Əhməd ibn Hənbəl, Əbu Səid Xudridən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:  Həsənlə Hüseyn behişt gənclərinin sərvəri, Fatimə isə behişt qadınlarının sərvəridir.  Bu hədis Buxarinin  Səhih  və Hakimin  Müstədrək  kitabında da nəql olunmuşdur.

Başqa bir rəvayətdə isə belə deyilir:  Fatimə iki dünya qadınlarının sərvəridir.

Yenə Peyğəmbəri-Əkrəmdən (s) belə nəql olunur:  Behişt qadınlarının ən üstünü Xüveylidin qızı Xədicə, Mühəmmədin qızı Fatimə, İmranın qızı Məryəm və Müzahimin qızı (və Fironun zövcəsi) Asiyədir.

### 2. Xanım Fatimeyi-Zəhra (s.ə.) – insan simasında bir huri:

Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:  Meraca getdiyim zaman Cəbrail (ə) məni behiştə



daxil edəndə behişt meyvələrindən daddım. Meyvələr nütfəyə döndü. Yerə qayıtdıqdan sonra Xədicə ilə yaxınlıq etdim və Fatimənin nütfəsi yoğruldu. Fatimə insan simasında bir huridir. Mən behişt qoxusunu arzulayanda, onu Fatimədən alıram.

### 3. Xanım Fatimeyi-Zəhranın (s.ə.) məhşər səhrasında uca məqamı:

İmam Səccad (ə) buyurmuşdur: Qiyamət günü xanım Fatimeyi-Zəhra (s.ə.) məhşər səhrasına daxil olduğu zaman, belə bir nida eşidilər: Əhli-beytə (ə) məhəbbət bəsləyənlərdən başqa, hamılıqla başınızı aşağı dikin (ki, Fatimə (s.ə.) gəlir). Budur Mühəmmədin (s) qızı Fatimə! Xanım Fatimə (s.ə.) və onunla birgə olanlar behiştə doğru hərəkət edərlər. Allah-Taala bir mələyi onun hüzuruna göndərib deyər: Nə istəyirsənsə, Məndən istə! Xanım Fatimə (s.ə.) ərz edər: İlahi! Mənim istəyim odur ki, mənə və övladlarıma yardımçı olanları əfv et. Bu məzmunda (azacıq fərqlə) imam Baqirdən (ə) də başqa bir hədis nəql olunmuşdur.

### 4. Xanım Fatimeyi-Zəhra (s.ə.) – behiştə daxil olan ilk kəs:

Məşhur əhli-sünnə alimi Zəhəbinin Mizanul-etidal kitabında İslalm Peyğəmbərindən (s) belə nəql olunur: Behiştə daxil olan ilk kəs Fatimədir.

Həmçinin Muhib ət-Təbərinin Ər-riyazun-nuzrə əsərində nəql olunur ki, xanım Fatimeyi-Zəhra (s.ə.) behiştdə İslam Peyğəmbəri (s) ilə bir dərəcədə olacaq.

Hakim Nişapurinin Müstədrək kitabında da belə nəql olunur: Əli, Fatimə, Həsən və Hüseyn (ələyhimus-salam) behiştə daxil olacaq ilk kəslərdir.



### 5. Xanım Fatimeyi-Zəhranın (s.ə.) Allah-Taalanın dərgahında məqamı:

İslam Peyğəmbəri (s) buyurmuşdur: ...Fatimə mehrabda Allah dərgahında ibadətə başladığı vaxt nuru ulduz kimi səma mələkləri üçün parlayar. Allah-Taala mələklərinə buyurar: Ey mələklər, Mənim hüzurumda ibadət üçün dayanmış kənizlərimin sərvərinə bir tamaşa edin. Görün, dərgahımda bədəni necə əsir. O, bütün varlığı ilə mənə ibadət edir...

## 6. Xanım Fatimeyi-Zəhra (s.ə.) – Peyğəmbərin (s) sevimlisi:

Ayişədən belə nəql olunur: Mən danışıqda Fatimə qədər Allahın Rəsuluna oxşar bir kəs görmədim. O, atasının hüzuruna gedərkən, Allahın Rəsulu onun ayağına qalxar, əlini öpər və onu öz yerində əyləşdirərdi.

Bir çox məşhur əhli-sünnə alimlərinin kitablarında qeyd olunur ki, İslam Peyğəmbəri (s) imam Əli (ə), xanım Fatimeyi-Zəhra (s.ə.), Həsən (ə) və Hüseynə (ə) baxıb buyurardı: Mən sizinlə düşmənçilik edənlərlə düşmən, dostluq edənlərlə dostam.

## 7. Xanım Fatimeyi-Zəhra (s.ə.) – Peyğəmbərin (s) bədəninin yarısı:

Buxarinin Səhih əsərində İslam Peyğəmbərindən (s) belə nəql olunur: Fatimə mənim bədənimin yarısıdır; onu qəzəbləndirən məni qəzəbləndirmişdir.

Bir gün səhabələr Allahın Rəsulunun (s) hüzurunda idilər. Həzrət onlardan soruşdu: Qadın üçün ən yaxşı iş nədir?

Heç kəs düzgün cavab verə bilmədi. İmam Əli (ə) Peyğəmbərin (s) sualını Fatimədən (s.ə.) soruşdu. Fatimə (s.ə.) buyurdu: Qadın üçün ən yaxşı iş odur ki, özgə kişiləri görməsin və özgə kişilər də onu görməsin.

Peyğəmbər (s) bu sözləri eşidəndə sevindi, cavabı bəyəndi və buyurdu: Fatimə mənim bədənimin yarısıdır.

## 8. Xanım Fatimeyi-Zəhranın (s.ə.) razılıq və qəzəbi Allahın razılıq və qəzəbidir:

İslam Peyğəmbəri (s) qızı Fatiməyə buyurmuşdur: Həqiqətən, Allah sənin razılığınla razı olur və qəzəbinlə də qəzəblənir.

## 9. Fatimə adının dərin mənaları:

Allahın Rəsulu (s) buyurmuşdur: Fatimənin (s.ə.) Fatimə adlandırılmasının səbəbi odur ki, Allah-Taala onu və dostlarını cəhənnəm odundan uzaq saxlayacaqdır.

İmam Sadiqin (s) də belə buyurduğu nəql olunur: Fatimənin Fatimə adlandırılmasının səbəbi odur ki, insanlar onun həqiqətini dərk etməkdən acizdirlər.

## 10. Xanım Fatimeyi-Zəhranın evi:

Allah-Taala Nur surəsinin 36-cı ayəsində buyurur: Allahın (şeytanların əlindən uzaq olmaq üçün) ucaldılmasına və Öz adının zikr edilməsinə izn verdiyi o evlərdir ki, orada səhər-axşam Onu təqdis edib şəninə təriflər deyərlər...

Peyğəmbərin (s) iki səhabəsi Ənəs ibn Malik və Büreydədən nəql olunur ki, Peyğəmbər (s) bu ayəni tilavət edərkən, o həzrətdən soruşuldu: Ya Rəsuləllah! Bu ayədəki evlər kimlərindir? Peyğəmbər (s) buyurdu: Peyğəmbərlərin evləridir. Yenə soruşuldu: Ya Rəsuləllah! Əli və Fatimənin də evi o evlərdən sayılırmı? Peyğəmbər (s) buyurdu: Bəli, bu, o evlərin ən üstünüdür!

## HƏZRƏT FATİMƏ (S.Ə.) ATASI PEYĞƏMBƏRDƏN (S) SONRA NƏ QƏDƏR YAŞADI?

Həzrət Fatimənin (s.ə.) Peyğəmbərdən (s) sonra nə qədər yaşaması ilə bağlı tarixçilər arasında fikirayrılığı vardır. Bəziləri bu müddətin altı ay olması fikri üzərində dayanmışlar. Bəziləri də bu müddətin qırx günə bərabər olmasını iddia edirlər. Bizim nəzərimizə əsasən, həzrət Fatimə (s.ə.) atası Rəsulullahın (s) vəfatından 95 gün sonra, 11-ci hicri-qəməri ilinin Cəmadiüs-sani ayının 3-də dünyadan getmişdir.

Məhəmməd ibn Cərir Təbəri mötəbər mənbəyə əsaslanaraq imam Sadiqin (ə) belə buyurduğunu nəql edir: Fatimə (s.ə.) çərşənbə axşamı Cəmadiüs-sani ayının 3-də şəhid edilmişdi. Şəhadətə yetməsinin səbəbi isə budur ki, ikinci xəlifənin qulamı Qunfuz onun əmrinə əsasən qılıncın qilafı ilə ona elə zərbə vurmuşdu ki, oğlu Möhsin anasının bətnindəcə ölmüşdü. Bu hadisədən sonra həzrət Fatimə (s.ə.) sağlamlığını itirmiş, ağır xəstəliyə tutulmuşdu

*Gürcüstan Müsəlmanları İdarəsi*

## HZ. FATİMEYİ ZƏHRADAN (S.Ə) HƏDİSLƏR

*Xanım Fatimeyi-Zəhra (s.ə.) bir hədisdə buyurur:*

*"Sizin dünyanızdan üç əməl mənim üçün sevimlidir: 1. Allahın kitabı Qurani-Kərimi tilavət etmək; 2. Allah Rəsulunun üzünə tamaşa etmək; 3. Allah yolunda infaq etmək (xərc çəkmək)."*

***1. QURANİ-KƏRİMİ TİLAVƏT ETMƏK:***

*Dini mətnlərimizdə Qurani-Kərimi tilavət etməyin digər dünya və axirət təsirləri və faydaları haqda çox danışılmışdır. O cümlədən: imanın artması, qəlbin saflığı, günahların bağışlanması, ruhi-psixoloji xəstəliklərin dərmanı, qəm-qüssənin aradan qalxması, gözün işıqlanması, tənhalıq zamanı munis, bərəkətli ömür, duaların qəbul olunması, behiştin yüksək mərtəbəsində qərar tutmaq, ata-ananın qəbir əzabının aradan qaldırılması və s.*

***2. ALLAHIN RƏSULUNUN ÜZÜNƏ BAXMAQ:***

*Xanım Fatimeyi-Zəhranın (s.ə.) bizim dünyamızdan bəyənib seçdiyi ikinci əməl Allah Rəsulunun (s) üzünə baxmaqdır və bunun bir neçə səbəbi var: Birinci səbəb odur ki, Allah Rəsulu (s) onun atasıdır və atanın üzünə məhəbbət gözü ilə baxmaq ibadətdir. İkincisi, Allah Rəsulu (s) böyük alimdir və alimin üzünə baxmaq ibadətdir. Üçüncüsü isə, o həzrət Allahın Rəsulu və peyğəmbəridir.*

*Biz yaşadığımız zamanda Allah Rəsulunun (s) hüzurundan məhrum olduğumuzdan, atalarımıza məhəbbət gözü ilə baxmaq və ona yaxşılıq etmək fürsətini əldən verməyək!*

***3. ALLAH YOLUNDA İNFAQ:***

*"İnfaq, yəni insanın öz ixtiyarında olduğundan başqalarına əta etmək və bağışlamaq. Bu isə həm elm ola bilər, həm də mal-dövlət və hətta başqalarına sevgi və onların dərdinə şərik olmaq.*